**Xəyalə MÜRSƏLİYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
**Sumqayıt Dövlət Universiteti**
**murseliyeva.xeyale@mail.ru**

# TÜRK DİLLƏRİNDƏ BƏZİ FEİL KÖKLƏRİNİN GENİŞLƏNMƏSİ

Türkologiyada feil köklərinə münasibət birmənalı deyil. İlkin feil kökləri ikihecalı olmuş, birhecalı feillər ikihecalı feillərin son saitinin düşməsi və ya şəkilçiyə qoşulması ilə əmələ gəlmişdir. A.N.Kononov, V.V.Reşetov, A.A.Palmbax, S.V.Sevortyan, B.Atalay ilkin feil köklərinin birhecalılığı və sonrakı inkişafda intensivlik yaratması haqqında fikirlər söyləmişlər. R.Rüstəmov qazmaq-*qazımaq*, coşmaq-*coşumaq* (ikinci feillər intensiv forma yaradır) tipli nümunələr əsasında birhecalılıq barədə əsaslı fikirlər demişdir.

Tarixən türk dillərində söz köklərinin hecaların artırılması ilə genişləndirilməsi, yəni feil köklərinin heca artımı ilə intensivləşməsi haqqında məlumatlar verilmişdir. Belə ki, türkoloji ədəbiyyatda türk dillərindəki söz köklərinin (eləcə də feil köklərinin) mənşəcə təkhecalı və ya ikihecalı olması haqqında əsasən iki fikir mövcuddur. Bəzi türkoloqlara görə, feil kökləri mənşəcə təkhecalı, bəzilərinə görə isə ikihecalı olmuşdur.

Araşdırma nəticəsində məlum olur ki, xalis türk mənşəli kök sözlər tarixən iki fonemdən (sait+samit) və üç fonemdən (samit+sait+samit səslər kompleksindən) ibarət olmuşdur. Türk dillərində mövcud olan çoxfonemli köklər haqqında onu demək olar ki, burada mürəkkəb və ya düzəltmə sözlərin tarixən sadə söz kimi formalaşması (ikinci sözün və ya şəkilçilərin daşlaşması) prosesi baş vermişdir.

P.M.Melioranski türk dillərindəki bəzi feil köklərinin

“geniş”liyinə, yəni əlavə qapalı səslisi olan feil köklərinə xüsusi fikir verir. O yazır: “Sonra, şübhəsiz, bəzi türk feilləri köklərindən, əsasən qapalı səslilərdən birinin əlavəsi ilə, bir növ, “geniş” (“genişləndirilmiş”) köklər əmələ gəlir ki, bunlarda da həmişə olmasa da, lakin çox vaxt “intensiv” məna qismən aydın şəkildə özünü göstərir”.

A.N.Kononov türk dillərindəki *şaş-a, kov-a, eş-e* tipli feilləri P.M.Melioranskinin termini ilə “geniş” (“genişləndirilmiş”) feil kökləri adlandırır və göstərir ki, bunlardakı *-a,-e* şəkilçiləri sonradan əlavə olunmuş elementlərdir. Ona görə həmin morfoloji göstəricilər paralel əsaslar əmələ gətirir: *tır-tır+a, kın-kın+a, eş-eş+e.* A.N.Kononov əlavə edilən səslərin (-a, -e) ilkin köklərə sürətlilik, intensivlik mənası qazandırdığını vurğulayır.

R.Rüstəmov Azərbaycan dialekt və şivələrindəki feil haqqındakı irihəcmli tədqiqatında paralel işlənən eynimənalı feillərin ikincisində intensivliyin, sürətliliyin geniş əks olunduğunu göstərir və bu xüsusda yazır: “Türk dillərində köklərin, xüsusən feil köklərinin mənşəcə təkhecalılığı Azərbaycan dili materialları ilə də təsdiq edilir. Azərbaycan ədəbi dilində, eləcə də dialekt və şivələrimizdə onlarca ikihecalı (və ya sonradan törəmə) feil əsaslarının sonradan törədiyini müəyyənləşdirmək çətin deyildir. Məsələn, Azərbaycan dilində *qaz* feili ilə yanaşı, həmin mənada *qazı* feili də işlənir ki, birincinin ilkin olduğunu, ikincinin isə *qaz* feilinə qapalı *-ı* səsinin, başqa sözlə desək, şəkilçinin əlavəsindən düzəldiyini söyləmək mümkündür. Yaxud ədəbi dilimizdə (eləcə də bütün dialekt və şivələrimizdə) *coş* feili işləndiyi halda, Cəbrayıl keçid şivəsində eyni mənada *coş+u* feili də vardır. Əlbəttə, buradakı *u* səslisini sadəcə əlavə kimi qəbul etmək doğru olmaz. C*oş* feili təkhecalı və ilkin, *coş+u* feili isə ikihecalı və sonradan törəmədir”.

Musa Adilov intensivlik yaradan dil faktlarının xüsusi araşdırma obyekti olmadığını göstərir və yazır ki, əslində bunu

tam xülasə etmək çox çətindir, bəlkə heç mümkün də deyildir. M.Adilov qeydlərində bunu da yazır ki, "genişləndirilmiş" köklərdə intensivlik mənası özünü göstərir. Məsələn, *qaz-maq//qazımaq, sarmaq//sarımaq* kimi sözlərin ikinci variantları mənaca intensivlik fərqinə malikdir. Beləliklə, intensivlik sözdə kəmiyyət fərqi hesab olunur.

Araşdırma nəticəsində müəyyən edilir ki, hərəkət ifadə edən sözlər ad bildirən sözlərə nisbətən əvvəl yaranmışdır. Sonra isə feil köklərində baş vermiş genişlənmə nəticəsində müəyyən funksional-semantik kateqoriyalar (intensivlik kateqoriyası) fərqləndirilmişdir.

**Khayala Mursaliyeva**

**EXPANSION OF SOME WERB ROOTS IN TURKISH LANGUAGES**

***Summary***

As a result of the research, it is known that the root words of net Turkish origin historically consisted of two phonemes (vowels+consonants) and three phonemes (consonants+vowels+ consonant sounds kumpleks). About the multi-phonemic roots existing in the Turkic languages, it can be said that here the process of the formation of complex or corrective words as historically simple words (grinding of the second word or suffix) took place.